Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Aktuallaşdırılmışdır: Fevral 2024

# Uşağın valideynlərinin yanına köçməsi - məlumat vərəqəsi

Xahiş olunur əvvəlcə milli viza üçün müraciət etməyə dair **ümumi məlumatları** oxuyun.

Sənədlərə baxılma müddəti orta hesabla 3 ay, bəzi hallarda daha artıq davam edir.

**Viza almaq üçün aşağıdakı sənədlər tələb olunur:**

- Xarici pasport, ən az 2 boş səhifəsi olmaqla *(xarici pasportun şəkil olan səhifəsi və əvvəlki Şengen vizaları, möhürlər və qeydlər olan səhifələrin 1 ədəd surəti)*
- Şəxsiyyət vəsiqəsi və ya Qeyri-Azərbaycan vətəndaşlarına verilən etibarlılıq müddəti qüvvədə olan Azərbaycanda yaşamaq haqqında icazə sənədi *(əsli + 1 ədəd surəti)*
- 1 ədəd alman dilində tam şəkildə doldurulmuş və şəxsən imzalanmış milli viza üçün ərizə forması
- 2 ədəd biometrik pasport şəkli (3,5x4,5; 6 aydan köhnə olmamalı)
- Viza rüsumu (milli viza üçün müraciət etməyə dair ümumi məlumatlara bax)
- Uşaq haqqında dəqiq məlumatları və onun ünvanını əks etdirən Almaniyada yaşayan valideyn tərəfindən göndərilmiş qeyri-rəsmi dəvətnamə
- Doğum haqqında şəhadətnamə alman dilinə tərcüməsi ilə *(əsli+ 1 ədəd surəti)*
- *əgər varsa*: valideynlərin nikah haqqında şəhadətnaməsi alman dilinə tərcüməsi ilə *(əsli + 1 ədəd surəti)*
- Valideynlərdən yalnız birinin yanına getdiyi təqdirdə əlavə olaraq tələb olunur: (*hər birinin əsli + 1 ədəd surəti, alman dilinə tərcüməsi ilə)*:
    - Nikahın pozulması haqqında şəhadətnamə və müvafiq məhkəmənin himayə huququna dair qərarı **yaxud**
    - Nikahın pozulması haqqında şəhadətnamə və digər valideyn tərəfindən verilən notarius tərəfindən təsdiqlənmiş və alman dilinə tərcümə olunmuş Azərbaycandan daimi köçməyə və Almaniyada yaşamağa razılıq sənədi **yaxud**
    - Digər valideynin ölüm haqqında şəhadətnaməsi
- *əgər varsa*: alman dili biliklərini təsdiq edən sənəd;

  zəruri olaraq 16 yaşdan yuxarı uşaqlardan C1 səviyyəsində olan alman dili biliklərini təsdiq edən sertifikat tələb olunur, (əgər uşaq hər iki valideynlə birlikdə Almaniyaya köçürsə, bu sertifikat tələb olunmur).

**Viza proseduru bitdikdən sonra həmişə təqdim olunmalıdır:**

- tibbi sığorta haqqında sənəd (Etibarlılıq müddəti: 90 gün, minimal məbləğ 30.000 avro, bütün Şengen dövlətləri üçün etibarlı, nəzərdə tutulan səfərin ilk günündən qüvvədə olmalı) **yaxud**
- Almaniyada bağlanılan tibbi siğorta. Ailə siğortası yalnız Almaniyada qeydiyyata düşdukdən sonra qüvvəyə mindiyinə görə, Siz səfər etdiyiniz tarixdən birinci 10 gün etibarlı olan siğortanı təqdim etməlisiniz.

**Xahiş olunur nəzərə alasınız ki, Sizin Azərbaycanda verilən ailə vəziyyətinə dair sənədləriniz və məhkəmə qərarları (məs.: qəyyumluq haqqında, övladlığa götürmək haqqında məhkəmə qərarları) leqalizasiya olunmuş şəkildə təqdim edilməlidir. Leqalizasiyaya dair məlumatları Siz buradan əldə edə bilərsiniz: https://baku.diplo.de/az-az/service/-/2214626**

Sənədlərin baxılma zamanı Almaniyadakı xaricilərlə iş üzrə məsul idarə (Ausländerbehörde) Almaniyada yaşayan valideyn tərəfindən ərizəçinin (uşağın) sosial yardım almadan **yaşam xərclərinin maliyyələşməsi**, eləcə də siğorta xərclərininin öz üzərinə götürmə imkanını və kifayət edəcək ölçüdə mənzilin olub-olmamasını yoxlayacaqdır. Bununla bağlı xaricilərlə iş üzrə məsul idarə (Ausländerbehörde) Sizin Almaniyada yaşayan valideynlə əlaqə yaradacaq. Buna görə də sənədləri verərkən valideynə dair məlumatların tam və doğru, dəqiq və oxunaqlı yazılmasına diqqət yetirin.

**Diqqət:**

Yetkinlik yaşına catmış uşaqların valideynlərin yanına yaxud da valideynlərin yetkinlik yaşına catmış uşaqların yanına köçməsi yalnız fövqəladə və müstəsna hallarda mümkündür (Yaşamaq haqqında Qanunun 36-cı maddəsinə əsasən).